


■ Tofiq Nurəli




## KÜLƏKLİ PƏNCƏRƏ

Səhərdən çırpınıb
Gedib qayıdır,
Hərdən lap baş-gözünü didib qayıdır,
Hərdən özünə
Sığal verib qayıdır...
Durum açım e... pəncərəni...
Bəlkə bu küləyin getməyə yeri yoxdu,
Bəlkə mənə sözü var,
Bəlkə heç külək deyil,
Bir sevginin ruhudu -
Məndə gözü var...
Durum açım e... pəncərəni...

## YOL

Anlataqmı anlamayan kəsləri,
Qəfil kəsdi çıx hayqıran səsləri.
Təkrar-təkrar deyir eyni dərsləri...

Beş günlükdü bu cah-cəlal, əzizim,
Tərəzidi haram-halal, əzizim,
Gəl ayrılaq, salamat qal, əzizim...

Məntiqi bol, absurdu bol, cəbri bol,
Dörd bir yanın elə yoldu, elə yol...
Gedim girim, gözlətməyim qəbri çox.

## AYNA ÜÇÜN

1

Mən sizi daim uşaq,
Daim körpə bilmişəm,
Quş kimi yuvadaca,
Quş kimi qanadımla
Sandım örtə bilmişəm.
Bəzən qanadlarımın
Yolunmuş yerlərindən
Sizə soyuq da dəyib,
Onda tir-tir əsmişəm.
O soyuğun qabağın
Gözlərimlə kəsmişəm,
Ürəyimlə kəsmişəm.
Saçlarıma çox erkən
Düşən dənlə kəsmişəm,
Yuxusuz gecələrdə
Gəlib çıxmaq bilməyən
Erkən danla kəsmişəm,
Nəyə gücüm çatıbsa
Mən onunla kəsmişəm,
O soyuğun qabağın.
Ürəyimin içində
Ən çox sənə əsmişəm...
Sən ən körpəmsən axı,
Bu da belə bir axır...
Mənim arı balam,
Kəpənək balam...
Yuvamda boş qoyduğun
Bu boşluğamı çəkim
İndi ata keşiyi...
A mənim sonbeşiyim.

2

Mən tez qocalmışam
Onu bilirəm.
Sən nə tez böyüdün
Onu bilirəm.
Nə tez qanadların böyüdü, bala?!
Haçan qanadların böyüdü, bala?!
Uçan qanadların böyüdü, bala...
Uçub getməyinə heç sözüm yoxdu.
Mən bir az kövrəyəm -
Dözümüm yoxdu...
Mənə fikir vermə, ağıllı balam...
Mənə fikir vermə, heç fikir vermə...
Ata alqışımı apar özünlə,
Məndən nə görmüsən, nə götürmüsən
Belə ən yaxşımı apar özünlə.
Apar mehr dolu qanadlarımı -
Səni isti saxlar yuva qurunca.
Qurduğum yuvada işıq olunca

Mütləq gərək olar, al apar qızım,
Apar gözlərimin işıqlarını...
Atada Allahlıq haqqı var, qızım,
Atada Allahlıq taxtı var, qızım,
O haqq da,
O taxt da qurbandı sənə!
Yəqin günahımdan keçər Allahım...
Mən sənə xoşbəxtlik dilədim ondan.
Ey böyük yaradan, ey BÖYÜK KİŞİ
Sən mənim balamı bəxtəvər eylə-
O sənin payındı,
Mənimsə sonbeşiyim!

## QƏMLİ BİR NƏĞMƏ

Qəmli bir nəğmədir həyat gözümdə,
Gəlibdir məminlə tum-tuş oxuyur.
Acı təbəssümün qalır üzümdə,
Mənim ürəyimdə bayquş oxuyur.

Ölmüş sevdalarda doludur insan,
Yıxılmış arzular qalaq-qalaqdır,
Mənim ürəyim yaxşı tapmısan,
Mənim ki, ürəyim xarabalıqdır.

Ölmüş arzuların keçdim yanından,
Ölən ümidləri basdırdım bir-bir...
Ölən bir sevginin həyacanından
Bir zaman ürəyim əsirdi tir-tir...

Taleh tez böyütdü bəlalarımı,
Qismət başım üstə ulduz axıtdı.
Himini qoyduğum qalalarımı
Taleh topa tutdu, vurdu-dağıtdı.

Bayquş nəğmələri kədərlə doldu,
O bir qəm səsidir viranəliyin...
Böyük sevgilər də səadət deyil -
Sonunda bayquş var divanəliyin...

O səsdə qorxu var, o səsdə dərd var,
Heçlik var, puçluq var, bir fanilik var.
O səsdə keçmiş var, o səsdə dərs var,
O səsdə bir az da ruhanilik var...

Qəmli bir nəğmədir həyat gözümdə,
Gəlibdir məminlə tum-tuş oxuyur.
Acı təbəssüm qalır üzümdə,
Mənim ürəyimdə bayquş oxuyur.

## KƏNDDƏN GEDƏRKƏN

Son gecə mən kənddən çıxıb gələndə
Təpəni aşınca bayquş ötürdü.
Sonra şimşək çaxdı lap uzaqlarda
Düz yarı yolacan yağış ötürdü...

Söndürüb maşını yolun içində
Başımı sükana söykəyib durdum,
Dağlar arasında bu tənhalıqda
Arxamca yürüyən qəhəri duydum.

Bir daş diyirləndi çayın içində,
Mən duydum o daşın iniltisini.
...Özümə də bilmirəm niyə boş yerə
İşləyir maşının şüşəsiləni...

## EVİMİZƏ ANAM GƏLİR

Ağ saçlarıma baxmağa,
Oğluma nişan taxmağa
Evimizə anam gəlməz...

Dünya büsbütün olsa da,
Hamısı bizə gəlsə də
Evimizə anam gəlməz...

Zaman keçər pillə-pillə..,
Evimizə illər gələr -
Evimizə anam gəlməz...

Deyilməmiş son sözümün
Ürəyimdə ağrısı var...
Kimin belə ağrısının
Üstündə al sarğısı var?!,
Evimizə anam gəlməz...
Elə gedib, elə gedib
Bilirəm heç zaman gəlməz...

## VİDALAŞMA

O kənd mənim ürəyimdə daş qalıb..,
Gedim qapımızı döyüm qayıdım...
Neçə ildir qəbristanda yurd salıb -
Gedim bir anama dəyim qayıdım...

Atamı soruşum qara torpaqdan
Bir dua oxuyum, bir şam yandırım...
Belə oğul olmaz, belə iş olmaz...
Gedim ruhlarını bir ovundurum...

Deyim ki, yaxşıyam, mən lap yaxşıyam.
Qız da köçürmüşəm, Siz istəyəntək...
...Vallah işlər çıxdı, vaxt keçdi bir az,
Yoxsa istəyirdik Novruzda gələk...

Deyim ki qardaşım gəlmişdi dünən,
Mən də baş çəkirəm bacılarıma...
Gedim bir övladlıq rahatlıq qatım
Atamın, anamın acılarına...

Söykənib qapıya, baxıb kilidə
Ürəyim dolsun aşım-daşım bir...
Mənimçün boş qalan, kimsəsiz qalan
O doğma kəndlə də vidalaşım bir...

## KÖHNƏ MƏKTUBLARIN SƏTİRLƏRİYLƏ

Keçim uşağından, keçib ərindən
Köhnə məktubların sətirləriylə,
Sevən həmin qızın ləpirləriylə -
Sonuncu görüşə, ən son görüşə
Dünyaya vidatək olan görüşə
Əvvəlki hiss ilə, həyəcan ilə,
Aparıb getdiyin o hicran ilə,
Qəlbində asılmış dərdlə-qübarla,
Gedəndə qoyduğun sınmış vüqarla,
Dünyanının sonudur - tələşlarıyla,
Həmin hönkürtüylə, göz yaşlarıyla
Məni görməməyə-məni görməyə
Təzədən dediyim "qəbrə girməyə",
Sonra da,
Sonra da, sonda,
Lap sonda
Sinəmin altında ölmüş ürəyə,
İçimdə ömürlük sınmış dirəyə
Dəli baxışlarda bir də baxmağa-
Sevdiyin acizə, namərd qorxağa,
Keçib uşağından, keçib ərindən
Həsrətin əzəlini -
Həmin zəlzələni gətirərsənmi?
Səndə o cəsarət olar, bilirəm!
Məndə o xəcalət qalır indi də.
İndi də bilmirəm neyləmək olar,
İndi də bilmirəm niyə çağırdım...
Sonuncu görüşə, ən son görüşə
Dünyayla vidatək olan görüşə
Sən yenə mərdanə gələ bilirsən -
Rəqibsiz meydana gələ bilərsən
Özünə sədaqət sübutu kimi..,
Mənim mənliyimin süqutu kimi...
...Köhnə məktubların sətirləriylə -
Sevən həmən qızın ləpirləriylə...

## AŞIRI MƏHƏBBƏT

Qəfil günəş kimi doğdu bu sevgi
Kor olduq önündə bu gur işığın...
Kor olmuş səadət yan keçdi bizdən
Məni ahın tutdu, səni alqışım!

Aşırı məhəbbət səadət deyil -
Xoşbəxtlik dar gəldi bəlkə bu eşqə,
Bəlkə zəhləsini tökdük Allahın
Ayrılıq göndərib etdi heç-heçə...

Dünyada hər şeyi dəyişir sevgi
O zəng, o telefon, o küçə olmur...
Bu qədər inadkar olma, İlahi,
Sevgidə zaman heç-heçə olmur.

## SƏHRA ÇİÇƏKLƏYƏNDƏ

Səhra kimi çiçəkləndi
İçim göz yaşlarımdan...
Bu çəmənin görünməyən quşlarından
Qəmli nəğmələr eşitdim -
Dedilər oxuyur öz-özünə...
Tanışlar-bilişlər
Baxıb üzümə
Başını buladı pərt-pərişan...
...Göz yaşından
Çiçəklənmiş bir səhrada dolaşan
Bəxtəvəri anlayan var?
Oraları məndən başqa
Tanıyan var?

## SEVGİ YAŞI

Adamlar doludu indi bu şəhər,
İşə gecikmirəm, qaçmıram işdən.
Məni də ram etdi həyat birtəhər
Bir az başım çıxdı alış-verişdən..,

Özümdən çıxmıram əvvəlki kimi,
Köçüb ürəyimdən gedib o təlaş.
İndi axtarmıram səadətimi -
Olmayan bir şeyi gəzməkmi əlac?!

Dostlar xəbər almır səni də daha,
Bir də ki.., dostların çoxusu yoxdur...
Səninlə rastlaşmaq həyəcanı yox,
Səni də itirmək qorxusu yoxdu.

İtənin nəyini itirəcəyəm,
Deyək ki, lap tapdım? - nə faydası var?
O başqa dünyaydı, bu başqa dünya -
Hərənin qaydasız öz qaydası var...

Bilmirəm o sevgi qalır, ya da yox,
Elə bir canımda həyat yorulur...
O sevgidən mənə qalan budur, bax -
Ürəyim həm boşdu, həm də ki, dolu...

Bir zaman yağışlar bizimki idi...
Özgə könüllər yağır indilər...
Bir vaxt pəncərəmdən baxan ulduzlar
Özgə pəncərələr baxır indilər...

Həmən bu yağışlar səndən çox kiçik,
Yağdığı könül də pöhran-pöhrandı...
Həmən bu ulduzlar sevgi yaşında,
Həmən pəncərə də məndən cavandı...


*Davamı səhifə 17-də*

*(Əvvəli səhifə 16-da)*

## SEVGİ

Sevgi belə olmur, balam,
Sarı-narıncı meşələr
Yağan payız qarıdır bu...
Min illik qəlb yarasının
Yıxılmış divarıdır bu...
Sevgi belə olmur, balam.

Həyat yoxdur ağrısında -
Ağrısında ölüm dadı.
Axır ki, bu sevgi deyil -
Bilmirəm nədisə adı...
Sevgi belə olmur, balam.

Soyuq-soyuq küləkləri
Üşüdür, ancaq üşüdür...
Sevgidən isinir adam,
Üşütmək ölüm işidir...

Soyuq payız gecəsində
Ağrısında ölüm dadı
Nədir o gedənin adı?...
Üstdən payız qarı yağır...
Qəsdən payız qarı yağır...

## 40 İL ƏVVƏLKİ MƏKTUB

Əvvəl qupquru,
Həm soyuq, həm arıq
Duyuram
O əllər sevgini yaşayır hələ...
Belin bir az əyilib,
əriyib işığı gözlərinin
Baxanda bilirəm,
O gözlər sevgini yaşayır hələ...
Saçların,
Saçların
Ağ göyərçinlərdi elə bil..,
Bəlkə heç o da deyil,
Beləcə ağ olub onlar əzəldən..,
Sadəcə mən
indi-indi görürəm.
İnanmaq çətindi -
O saçlar sevgini yaşayır hələ..,
...Sən heç dəyişməmisən,
Elə-belə,
illərdi keçib gedən...
Əlimdə çəlik
Mən yenə də
Hər gün yoluna çıxıram
40 il əvvəlki məktub üçün baxıram,
Yumulu ovcunun içindəymiş yenə...
Mənə
Cavab yazacağını demişdin -
40 ildi gözləyirəm...
Tələsmə,
Dünyadan heç yerə getmə -
40 il də gözləyərəm...

## SİZİF ÖMRÜ

Yəqin o dünyaya qaldı bizimki
Özümü aldadım indidə belə...
Nə ümid eyləyim, nədən bilim ki,
Bu son ümidi də verməyin yelə...

Mən birinci getsəm gələn deyilsən,
Gəlsəydin, yəqin ki, burda gələrdin...
Sən birinci getsən, yox istəmirəm
Sənin tez getməyin ağır kədərdir.

Yaman öyrənmişik bir-birimizə
Kəlmə kəsmək də, bir olmasaq da...
Bir sevgi havası bürüyüb bizi
Heç zaman sirr verib, sirr almasaq da...

Məni görmək üçün çıxırsan evdən,
Səni görməyəndə vaxtım darıxır.
Bir sevgi havası bürüyüb bizi..,
İllərdi bir ümid sürüyür bizi
İndi o ümid də, baxdım, darıxır,..

Belə sevgi olmaz, ancaq var axı...
Belə ümid olmaz, ancaq var axı
Bu necə həyatdı, bu necə tale
Hər şeyi eləcə vaxta buraxıb

Di, yaxşı, neyləyək, 30 il, 40 il?
Nə bu sevgi ölür, nə ümid ölür.
Bir sevgi havası bürüyüb bizi,
İllərdi bir ümid sürüyür bizi
Nə xoşbəxtlik imiş bu sinif ömrü